UOT 94

SABİR ƏHMƏDOV
Bakı Dövlət Universitetinin
Asiya və Afrika ölkələri tarixi kafedrasının magistrantı
sabir.axmedov2002@gmail.com

TAYVAN PROBLEMİNDƏ ABŞ-NIN ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/107/211-216

Tayvan problemi XX əsrin 50-ci illərindən etibarən ABŞ-nın xarici siyasətinin mühüm istiqamətlərindən biri hesab edilir. Bu problemin əsas mahiyyətini açmaq və ABŞ-nın bu problemdə rolunu öyrənmək üçün, ilk növbədə 1894-1895-ci illər Çin-Yapon müharibəsinin nəticələrinə nəzər salmalıyıq. Məhz bu zamandan etibarən ada öz inkişaf xəttinə görə kontinental Çindən ayrılmağa və burada milli kimlik ideyaları formalaşmağa başlayır. Çində baş verən vətəndaş müharibəsi nəticəsində Homindan qüvvələri məğlub olur və Çan Kayşinin rəhbərliyi altında Çin Respublikası Tayvan adasında yerləşməyə məcbur olur. Bunun nəticəsində Tayvan adası kommunistlərin hakimiyyətə gələ bilmədiyi yeganə Çin ərazisi olaraq qaldı.

Açar sözlər: Tayvan, ABŞ, Çin Xalq Respublikası, Homindan, vətəndaş müharibəsi.

Giriş. 1949-cu ilin dekabr ayında Çində baş verən vətəndaş müharibəsində məğlub olan Homindan, Tayvan adasına köçmək məcburiyyətində qaldı. Onun Taybey şəhərini Çinin "müvəqqəti" paytaxtı elan etməsi ilə beynəlxalq münasibətlər tarixində mühüm əhəmiyyət kəsb edən Tayvan probleminin təməlini qoyulur. Problemin "soyuq müharibə" illərində meydana çıxmasından, ona bir növ SSRİ ilə ABŞ-ın regionda üstünlük əldə etməsi uğrunda mübarizəsinin nəticəsi kimi baxmaq olar. Lakin məsələyə bu prizmadan yanaşdıqda onun real mahiyyətini anlamaq çətin olur. Belə ki, əgər problemin yaranma səbəbi kimi SSRİ-ABŞ qarşıdurmasını qəbul etsək, o zaman 1991-ci ildə SSRİ-nin süqutu və "soyuq müharibənin" başa çatmasından sonra problemin həllini tapmaması nə ilə izah olunur? Məhz bu suala cavabın tapılması problemin real mahiyyətini açmağa və onu anlamağa imkan verir. Qeyd edək ki, Tayvan problemi yarandığı dövrdən etibarən lokal xarakterli problem deyil, məhz geniş miqyaslı beynəlxalq səviyyəli problemə çevrilmişdir. Bunun başlıca səbəblərindən biri ABŞ-ın regionda olan maraqları və onların Çinin artan nüfuzu ilə kəsişməsi olmuşdur ki, bu da, maraqlarının təmin edilməsi üçün ABŞ-ın Tayvandan Çinə təsir vasitəsi kimi istifadə etməsi, Tayvanın qorunması və mövcud status-kvonun saxlanılması ilə bağlı idi.

Yaponiyanın Tayvanı işğal etməsi. 1895-ci il 17 apreldə imzalanan Şimonoseki müqaviləsinə uyğun olaraq, Çinin ən böyük adası olan Tayvan (və ya Formoza) Yaponiya tərəfindən işğal edilir və yarım əsrə yaxın işğal altında qalır. Məhz bu zamandan etibarən Tayvanın iqtisadi və sosial inkişafı kontinental Çindən fərqli istiqamətdə inkişaf etməyə başlayır. Bunun əsas səbəbi isə Yaponiyanın adada həyata keçirdiyi siyasətlə bağlı idi. İşğal dövründə Tayvanda bütün hakimiyyət geniş səlahiyyətlərə malik olan yapon qubernatorunun əlində cəmləşmişdir [8]. Əsas inzibati strukturlar belə yaponlardan ibarət olmuşdur, onların başlıca vəzifəsi adanın "yaponlaşdırılma"sını həyata keçirməkdən ibarət idi.

Yaponların qoyduğu məhdudiyyətlərə baxmayaraq XX əsrin əvvəllərində adanın yerli elitası idarəçilikdə aktiv rol oynamağa başlayır. Bunlardan Lin Eyantanın adını xüsusi qeyd etmək olar. Adanın müstəqilliyinin təmin edilməsi uğrunda mübarizə aparan Lin Eyantan 1914-cü ildə "Tayvan Assimilyasiya Cəmiyyəti"nin əsasını qoysa da, tezliklə təşkilatın fəaliyyətinə qadağan qoyulur [1, s. 160]. Lakin bununla Tayvanda azadlıq mübarizəsi dayanmır, ada əhalisi müstəmləkəçilərə qarşı mübarizədə yeni üsullara əl atır. Bunlardan biri Tayvanda yerli idarəetmə orqanının yaradılması məzmunlu məktubların yapon hökümətinə göndərilməsi olmuşdur.

20-30-cu illərdən başlayaraq "Tayvan tayvanlılarındır!" şüarları ilə Tayvanda müstəqillik uğrunda mübarizə geniş vüsət alır. Düzdür, bu şüarlar "Tayvan Yaponiyanındır" faktına qarşı yönəlsə də, digər tərəfdən, adanın kontinental Çinlə bağlılığını da inkar etmirdi. Bununla bağlı Çin Mədəniyyəti Universitetinin professoru Van Syaoboda qeyd edir ki, anti-yapon hərəkatı Tayvan əhalisi arasında

"Çinli milli özünüdərk" ideologiyasının möhkəmlənməsinə kömək etmişdir [2, s.80-81]. Lakin ziddiyyətli məqam ondan ibarət idi ki, anti-yapon hərəkatının liderlərinin Tayvan əhalisinə təbliğ etdiyi Çin və çinli obrazı idealizə edilsə də, bu obraz reallığa uyğun gəlmirdi. Məhz bu səbəbdən də 1945-ci ildə Homindan qüvvələri Tayvana daxil olanda ada əhalisi böyük məyusluq hissi keçirir, çünki onlar uzun illər ərzində eşitdikləri Çin və çinli obrazının tam əksi ilə üzləşirlər.

Qeyd edək ki, 1943-cü ilin dekabr ayında ABŞ, Böyük Britaniya və Çin Respublikası arasında Qahirə konfransında imzalanan bəyannaməyə əsasən Tayvan İkinci Dünya Müharibəsinin başa çatması ilə Çinə qaytarılmalı idi [4]. Qahirə bəyannaməsi 1945-ci il Yalta və Potsdam konfranslarında da öz təsdiqini tapmışdır. Belə ki, SSRİ, ABŞ və Böyük Britaniyanın imzaladığı Potsdam bəyannaməsinə görə, Çinin bütün işğal edilmiş əraziləri, o cümlədən Yaponiya tərəfindən işğal edilən Tayvan adası Çinə qaytarılmalı idi [5, s 4].

Almaniyanın təslim olmasından sonra SSRİ-nin Yaponiyaya qarşı müharibəyə qoşulması və Uzaq Şərqdə sülhün bərpası məsələsi daha da aktuallaşdı. Potsdam konfransında müttəfiqlərə verdiyi vədə uyğun olaraq 1945-ci ilin 8 avqustunda SSRİ Yaponiyaya müharibə elan edir. Bundan dərhal sonra sovet qoşunlarının Şimal-Şərqi Çin (Mancuriya) istiqamətində yürüşü başlayır. Sentyabrın 2-də yaponların ABŞ-ın "Misssuri" linkorunda təslim aktını imzalaması ilə İkinci Dünya Müharibəsi başa çatır. Artıq 1945-ci ilin 25 oktyabrında Tayvandakı yapon qoşunları təslim olur və ada rəsmən Çin Respublikasının tərkibinə daxil edildi. Düzdür, müharibənin sonunda nə Homindanın, nə də kommunistlərin Çində olan işğalçı yapon qoşunu ilə mübarizə aparmağa gücü olmasa da, Yaponiyanın təslimindən dərhal sonra hər iki tərəf yaranmış vəziyyətdən istifadə edərək qələbəni öz adına çıxarmağa çalışırdı. Tezliklə Homindanın lideri Çan Kayşi öz ordularına hücuma keçməyi əmr edir, paralel olaraq yapon qoşunlarından yalnız Homindan qüvvələrinə təslim olmaq tələb edilir. Tezliklə ABŞ-ın təyyarə və gəmiləri Çinin iri şəhərləri – Şanxay, Pekin, Nankin, Quançjou və digərlərinin Homindana təslim edilməsi üçün Homindan qüvvələrini şərqə və cənuba daşıyır, bununla bu ərazilərdə Çin Kommunist Partiyasının (ÇKP) hakimiyyətinin qurulmasının qarşısı alınır.

Məlumdur ki, ÇKP-nın əsas qüvvələri ölkənin şimalında və mərkəzində yerləşirdi. Onlar Homindan qüvvələrindən daha əlverişli vəziyyətdə olsalar da, kommunistlər ciddi silah çatışmamazlığı ilə üzləşmişdilər. Belə ki, bəzi statistik məlumatlara görə kommunistlərə məxsus olan ordu hissələrində üç hərbiçiyə bir odlu silah düşürdü [3, s.576]. Məhz bu səbəbdən də kommunistlər iri şəhərləri öz hakimiyyəti altına ala bilmədilər, Homindandan geri qalmamaq üçün onlar əsas diqqəti kiçik və orta yaşayış məntəqələrin yapon işğalından azad edilməsinə yönəltmişdilər. Həm Homindanın, həm də ÇKP-nın Çini işğaldan azad etmək "fəaliyyəti" tərəflər arasında toqquşmalara və vətəndaş qarşıdurması təhlükəsinə gətirdi. Bunun baş verəcəyi halda Çin kommunistləri Homindan və onu himayə edən ABŞ ilə müharibədə SSRİ-nin dəstəyinə güvənirdi. Buna baxmayaraq 1945-ci il 14 avqust bəyannaməsində Sovet hökuməti bildirdi ki, Çinin daxili işlərinə qarışmayacaq və əksinə, vətəndaş müharibəsinin qarşısını almağa çalışacaq. SSRİ-nin bu mövqeyindən istifadə edən Çan Kayşi 14, 20 və 23 avqust tarixlərində vəziyyəti öz xeyrinə dəyişmək üçün ÇKP ilə danışıqların keçirilməsini təklif edir. Sovet hökümətinin mövqeyinin dəyişilməz qaldığını görən Mao Tszedun 28 avqustda Çunçinə Homindan ilə danışıqlara getmək məcburiyyətində qalır [3, s.577].

Çin vətəndaş müharibəsində Homindanın məğlubiyyəti. İkinci Dünya müharibəsinin nəticəsində Homindan ilə ÇKP arasında gərginlik daha da artdı. Mancuriya ilə Haynan arasındakı ərazilərə nəzarət edən ÇKP güclü sosial dayağa malik olan partiyaya çevrilməkdə idi. Tezliklə, Çin kommunistləri öz rəhbərlikləri altında, Homindana tabe olmayan idarəçilik sisteminin yaradılmasına başladılar. Bu yeni sistemin əsas dayağı güclü ordu idi ki, onun əsas vəzifəsi ÇKP-ni qorumaqla yanaşı, həm də Homindana dağıdıcı zərbə vurmaqdan ibarət idi.

ABŞ-ın vasitəçiliyi ilə Homindan və ÇKP arasında Çunçində danışıqlar 1945-ci ilin avqustundan 1947-ci ilin martına kimi davam etdi. Lakin Homindan rəhbərliyi danışıqlara laqeyd yanaşır, ÇKP-nın gücünü düzgün dəyərləndirməyərək hakimiyyəti bütövlükdə öz əllərində cəmləşdirməyə çalışırdı. Bu məqsədlə 1946-cı ilin iyununda Homindan qüvvələri hücuma keçir. Bununla da bütöv Çin miqyasında vətəndaş müharibəsi başlayır. ABŞ Homindanı dəstəkləsə də, Avropada kommunizmin yayılması və qərb dünyasına qarşı təhlükənin yaranması səbəbindən ABŞ əsas diqqətini Çindəki hadisələrə deyil, Avropaya yönəltdi. Homindan ilə həmrəy olduğunu nümayiş etdirmək üçün ABŞ məhdud hərbi yar-

dım göstərdi ki, bu yardım ilə Homindanın ÇKP-yə qarşı dirəniş göstərməsi mümkün deyildi. Danışıqlarda ÇKP liderlərinin iştirakı isə Çin kommunistləri üçün partiyanın ümumçin xarakter daşıdığını və onun bütün Çin xalqını təmsil etdiyini sübut etmiş oldu. Kommunistlərin həm hərbi, həm də diplomatik uğurlarının fonunda Homindanın nəzarətində olan Çin Respublikası dərin böhran keçirirdi ki, bunu iki əsas istiqamətdə göstərmək olar [6, s.582].

Birinci istiqamət özünü iqtisadiyyatda göstərirdi. İqtisadi sahədə Homindan yapon metodu – xarici kapitalın hesabına dövlət sektorunun genişləndirilməsinə çalışırdı, bu da ölkədə korrupsiyanın artması və iqtisadi çətinliklərin dərinləşməsi ilə nəticələndi. Digər istiqamət isə siyasi sahədə müşahidə olunurdu. Belə ki, Homindan rəhbərliyi özünün siyasi monopoliyasının saxlanmasına çalışır ki, bu da ÇKP ilə ziddiyyətlərin gərginləşməsinə, o cümlədən Homindanın daxilində parçalanmaya səbəb oldu.

Digər tərəfdən, Homindanın kənddə yürütdüyü siyasi hətt də yeni çətinliklər yaradırdı. Belə ki, Homindan kənddə müharibə dövrünün siyasətini davam edir – kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən ucuz qiymətlə alınması ilə dövlətin bazarda rolunun artırılmasına zəmin yaratmağa çalışırdı. Bu torpaq sahibkarlarının böyük narazılığına səbəb oldu. Tezliklə Homindana qarşı olanlar öz oğullarını onun hərbi sıralarına göndərməkdən imtina edir. Bunun nəticəsində kəndlilər arasında kommunist təbliğatı genişləndi. 1948-ci ilin avqustunda keçirilən valyuta islahatı, o cümlədən xarici valyutadan istifadənin qadağa etdirilməsi, Homindanın əsas dəstəyi olan yuxarı təbəqənin narazılığına səbəb olur. Homindanın son dəstəyi olan orduda da böhran baş verir. Belə ki, korrupsiyanın artması ÇKP-yə qarşı mübarizə aparan ordunu faktiki olaraq idarəolunmaz quldur dəstələrinə çevirir. Artıq 1947-ci ildə partiyaya qarşı rəsmi müxalifət formalaşır. Yaradılan Demokratik Liqa partiyası Çinin birliyi uğrunda mübarizə aparacağını, bu məqsədlə ÇKP və Homindanla əməkdaşlıq edəcəyini bildirdi. Liqanın əsas məqsədi Çan Kayşi diktaturasına qarşı mübarizə aparmaq olmuşdur. Bununla yanaşı 1948-ci ildə Çan Kayşiyə qarşı olan qüvvələr Homindanın İnqilabi Komitəsini yaratdırlar, lakin hər iki partiyanın Çində baş verən proseslərə o qədər də böyük təsiri olmur.

Təbii ki, Homindanın zəifləməsi prosesi ÇKP-nın nüfuzunun artmasına təsir edirdi. Artıq ölkədə baş verən çıxışlarda "rədd olsun Çan Kayşi!" kimi şüarlar səslənilirdi [7, s.289]. Bunlardan istifadə edən ÇKP 1947-ci ilin yayına əks-hücuma keçdi. Kommunist rəhbərliyi Çin xalqına Homindanın qurduğu siyasi sistemi ləğv etməyi və ölkənin birləşdirilməsini vəd edirdi. 1947-ci ilin iyulundan 1948-ci ilin avqustuna kimi baş verən hərbi əməliyyatların gedişində ÇKP-nın hərbi qüvvələri Homindanın nəzarəti altında olan ərazilərə daxil oldu. 1948-ci ilin sentyabrından 1949-cu ilin yanvarına kimi davam edən hərbi əməliyyatların nəticəsində Yantszı çayının aşağı axarı və Mancuriya tam olaraq ÇKP-nin nəzarətinə keçdi. Son hərbi əməliyyatlarda kommunistlər Pekin, bütün Şimali Çin və Tyancini ələ keçirdilər. 1949-cu ilin 23 aprelində Nankin, 27 mayında Şanxay, oktyabr ayında isə Quandun ÇKP qoşunlarının nəzarətinə keçir. Tədricən Homindan qüvvələri kommunistlərdən qorunmaq məqsədilə kontinental Çindən kənar olan Tayvana qaçmağa başlayırlar.

Homindan qüvvələrinin Tayvanda yerləşməsi. Homindan qüvvələrinin Tayvana gəlişi və burada yerli idarəçilik qurması ada əhalisi tərəfindən birmənalı qarşılanmamışdır və tezliklə çıxışlara səbəb olur. 1947-ci ilin 28 fevralında baş verən çıxışların nəticəsində 30 minə yaxın insan həlak olur. "Tayvanın fəlakəti" adlı məqalədə (1947) anonim müəllifi yazırdı: *"Onlar (Homindan) özlərini işğalçı kimi apararaq, tayvanlılara qarşı keçmişdə Yuan sülaləsinin (monqollar) də Çinin cənub əhalisinə qarşı göstərdiyi münasibəti təkrarlayırdılar. Onlar özləri ilə Çindən korrupsiya və qanunsuzluq gətirərək Tayvanın iqtisadiyyatını məhv etdilər... Tayvanlıların sevinclə qarşıladığı bu adamlar indi onların başları üzərindən yeriyir. Müttəfiqlər Yaponiyanı iki nüvə bombası ilə cəzalandırdıqları halda, Tayvana isə acgöz məmurlar kütləsini göndərdilər"* [2, s.91-92]. Homindanın gəlişi ilə tayvanlılar yenidən özlərini müstəmləkə dövründəki "ikinci dərəcəli zümrə" kimi hiss etməyə başladılar. Hətta yaranan vəziyyət ilə bağlı ada əhalisi "itlərin yerinə donuzlar gəldi" ifadəsini işlədirdilər.

Homindan qüvvələrinin Tayvana axını adada əhali tərkibinə də ciddi təsir göstərmişdir. Belə ki, müharibədən əvvəl Tayvanda əhalinin dörd etnik qrupdan ibarət olduğu məlum idi. Bunlara hoklo, hakka, vayşencen və yerli əhali aiddir [2, s.87]. Yerli əhali (yuançjumin - 原住民) adanın ən azsaylı və daha çox avstroneziya mənşəli qrupuna daxilir. Adaya 8 min il əvvəl gəlmələrinə baxmayaraq XVII əsrdən başlayaraq çinlilərin adaya axınının artması ilə yerli əhali ciddi assimilyasiyaya uğrayır. Hazır-

da Tayvanda 500 min aborigen əhali yaşamaqdadır. Adanın əhalisi 1930-cu ildə 4.5 milyon nəfər olub ki, onun 91%-ni (4.1 milyon) çinlilər (hanlar) təşkil edib. Hoklo (河洛人) adlanan qrup əhalinin əsas hissəsini təşkil edir. Hoklolar etnik çinlilərlə eyni olub, belə ki, bu qrupa 1945-ci ilə kimi Cənubi Çinin Fucyan vilayətindən gələnlər aid edilir. Hakka (客家人) adlanan qrup da Hoklo kimi adaya gəlmə olub. Bu qrupa aid olan əhali XVII əsrin əvvvəlləri – XIX əsrin sonlarına kimi Çinin Quandun vilayətindən Tayvana köç edib. Bu səbəbdən hoklo və hakkanı bir ad – benşencen (vilayətlərdən gəlmələr - 本省人) altında birləşdirirlər. Vayşencenə gəldikdə (kənar vilayətlərdən gəlmələr - 外省人) bu qrupa 1945-ci ildən sonra Çindən gəlmə əhali daxildir. Homindan qüvvələrinin adaya gəlişi ilə Tayvanda vayşencen qrupu üstünlük qazanmış olur [2, s.88-89].

ABŞ-ın Çində baş verən proseslərə müdaxiləsi. Çində kommunizmin möhkəmlənməsi ABŞ-ı narahat etməyə bilməzdi. Ona görə də, ABŞ regionda kommunizmin yayılmasının qarşısını almaq üçün Çində baş verən proseslərə müdaxilə etmək qərarına gəlir. 1945-ci ilin 30 sentyabrında ABŞ-ın hərbi dəniz qüvvələri Tyancinə daxil olur. Tezliklə ABŞ buraya əlavə hərbi qüvvələr göndərir ki, artıq 1945-ci ilin sonlarına yaxın Çində 113.000 nəfərlik ABŞ hərbi kontingenti var idi [9, s. 62-63]. ABŞ-ın hərbi yardımı ilə Homindanın qüvvələri 1946-cı ilin yazında şimali-şərqi Çinə daxil olur və sahilyani əraziləri öz nəzarətinə alır.

Bununla ABŞ Cənubi Çində kommunizmin yayılmasının qarşısını aldığını hesab edirdi. Bu səbəbdən də ABŞ-ın vasitəçiliyi ilə 10 yanvarda ÇKP və Homindan arasında atəşkəs haqqında razılaşma əldə edilir [9, s.64]. Çin vətəndaş müharibəsi ABŞ-ın kommunistlərlə müharibəyə cəlb edilməsi təhlükəsini yaratdığından, Konqresin qərarı ilə ABŞ qoşunları Çini tərk etməyə başlayır. Artıq 1947-ci ilin iyununda onların sayı 6.180 nəfərə qədər azalır, 1949-cu ildə isə ABŞ qoşunları tam olaraq Çini tərk edir [10, s.26]. Buna baxmayaraq 1947-ci ilin iyulunda Çan Kayşinin razılığı ilə Tayvanda, Cənubi Çində (Quançjou), qərbdə olan Sıçuan, şimalda isə Sian, Lançjou və Urumçidə ABŞ-ın hərbi bazaları yaradılır. Lakin vətəndaş müharibəsinin gedişində bu bazaların əksəriyyəti kommunistlər tərəfindən ləğv edilir, ABŞ qoşunları isə Çindən qovulur. Yalnız Tayvan adası ABŞ qüvvələrinin köməyi ilə Homindanın nəzarəti altında qalır.

Digər tərəfdən, ABŞ-ın Çindəki proseslərə müdaxilədə iqtisadi maraqları da olub. 1946-cı ilin noyabrın 4-də Çin Respublikası və ABŞ arasında Nankində müqavilə bağlanır. Bu müqaviləyə görə, amerikalılara Çində azad istehsal sahələri qurmaq, ticarətlə məşğul olmaq, missioner təbliğatı aparmaq, sərbəst şəkildə torpaq sahələrini icarəyə götürmək hüququ verildi. Eyni zamanda onlara faydalı qazıntıların axtarışını həyata keçirmək və yeni infrastruktur sahələrinə sərmayə qoymaq kimi geniş imtiyazlar verilirdi. Nankin müqaviləsi ilə ABŞ vətəndaşları Çində yaşamaq, onun ərazisində sərbəst hərəkət etmək, ABŞ-a məxsus olan ticarət gəmiləri isə Çinin daxili sularında üzmək hüququ əldə edirdi. Qeyd edək ki, eyni imtiyazlar çinlilər üçün də ABŞ ərazisində nəzərdə tutulurdu. Vətəndaş müharibəsinin gedişində öz mövqeyini möhkəmlətmək üçün ABŞ Çinlə daha iki müqavilə bağlayır: bunlar 1947-ci ilin 27 oktyabrında qəbul olan "Çinə yardım haqqında" (Agreement between the US and China regarding relief assistance to China, signed October 27, 1947) və 1947-ci ilin 8 dekabrında imzalanan "Hərbi-dəniz əməkdaşlığı haqqında" sazişlər idi [11, s.62-63].

ABŞ-ın Çində digər maraq dairəsi hərbi sahə olub ki, o, burada aerodromların və hərbi bazaların inşası ilə özünün regiondakı hərbi potensialının artırması və SSRİ-yə qarşı Homindanın güclü hərbi-siyasi müttəfiq kimi istifadə edilməsini nəzərdə tuturdu [11, s.64]. Lakin kommunistlərin qələbəsindən sonra ABŞ Tayvanda fəaliyyət göstərən Çin Respublikasından kommunist avtoritarizminin regionda yayılmasının qarşısını alan bufer zonası kimi istifadə edilməsinə başladı.

Geniş mənada Homindanın məğlubiyyəti eyni zamanda ABŞ-ın Çin cəbhəsində kommunistlərə məğlubiyyəti anlamına gəlirdi. 1949-cu ilin avqustunda ABŞ-da Çinlə bağlı münasibətləri ehtiva edən "Ağ kitab" dərc olur. Bu sənədlə ABŞ faktiki olaraq Çindəki siyasətinin iflasa uğradığını etiraf etmiş olurdu [6, s.240-243]. Lakin bununla ABŞ Homindana dəstəyini dayandırmır, Cənubi Çin və Tayvana hərbi yardım göndərilməyə davam edilirdi. ABŞ-ın məqsədi dinc yolla Homindanın Cənubi Çindəki mövqeyini möhkəmləndirmək olmuşdur.

Bu məqsədlə 1949-cu ildə Çan Kayşi danışıqlara hazır olduğun bildirir. 1949-cu ilin yanvarın 14-də Mao Tszedun da danışıqlara razılığını verir. Lakin danışıqların formal xarakter daşımasının qarşısını

almaq üçün Mao Tszedun səkkiz şərt irəli sürür. Bu şərtlərə: hərbi cinayətkarların cəzalandırılması, Homindan konstitusiyasının (1947) və hüquq sisteminin ləğv edilməsi, Homindan ordusunun yenidən təşkil edilməsi, bürokratik kapitalın müsadirəsi, aqrar islahatın həyata keçirilməsi, digər dövlətlərlə bağlanılan müqavilələrin ləğv edilməsi, Siyasi Məşvərət Şurasının yaradılması, koalisyon hökumətin təşkil edilməsi daxil idi [6, s.243-244]. Danışıqlar ÇKP-nin şərtlərinin qəbul olması ilə nəticələnir.

Lakin tezliklə Homindanın əks-hücuma keçməsi danışıqlarda əldə edilmiş razılaşmanı qüvvədən saldı. Buna cavab olaraq 21 sentyabrda Pekində Çin Xalq Siyasi Məşvərət Konfransı (ÇXSMK) açılır. ÇXSMK-nın ilk sessiyasında Çin Xalq Respublikasının milli hökümətinin təşkil edilməsi haqqında qərar verilir, müvəqqəti konstitusiya funksiyasını yerinə yetirən Ümumi Qanun qəbul edilir [3, s. 240]. 1949-cu ilin oktyabrın 1-də Pekində, Tyananmen meydanında Çin Xalq Respublikasının (ÇXR) qurulması rəsmən elan edilir. Bununla Çində iki müstəqil dövlət: kontinental Çində ÇXR və Tayvan adasında isə Çin Respublikası fəaliyyət göstərməyə başlayır.

Nəticə. Beləliklə, Tayvan probleminin meydana gəlməsi və onun bu günə qədər həllinin tapa bilməməsində bir neçə amilin xüsusi rolu olmuşdur. Bunlardan birincisi, əlbəttə ki, adanın 1895-ci ildən etibarən Yaponiyanın işğalı altında olması və bu səbəbdən də kontinental Çin ilə əlaqələrinin kəsilməsi, ondan fərqli istiqamətdə inkişaf etməsi faktıdır. Yapon işğalı ada əhalisində müstəqillik ideyalarının möhkəmlənməsinə - milli kimliyin formalaşmasına səbəb olmuşdur.

Problemin yaranmasına təsir edən ikincisi amil Homindan partiyası və onun Çində baş verən prosesləri düzgün qiymətləndirməməsi, ABŞ-ın hərbi dəstəyinə güvənərək vətəndaş müharibəsinə rəvac verməsi olmuşdur. Vətəndaş müharibəsi gedişatında məğlub olan Homindan rəhbərliyinin Tayvanda yerləşməsi ilə, artıq yarım əsrə yaxın Çində gedən siyasi və sosial proseslərdən kənarda qalan Tayvan adası, indi bu proseslərin əsas mərkəzinə çevrilmiş olur.

ƏDƏBİYYAT

1. Родригес А. М. Новейшая история стран Азии и Африки, часть 2 (1945-2000), Москва, Гуманит. Изд. Центр ВЛАДОС, 2001, 325 с.
2. Каимова А.С. История формирования и эволюции тайваньской идентичности в послевоенный период (1945-2008). Москва, Изд-во МГУ, 2016, 228 с.
3. Меликсетов А.В. История Китая. Москва, Изд-во МГУ, Изд-во «Высшая школа», 2002, 736с.
4. Cairo Communique. - URL:
https://www.ndl.go.jp/constitution/e/shiryo/01/002_46/002_46tx.html [18.06.2024].
5. Глунин В.И., Григорьев А.М. Новейшая история Китая (1917-1970 гг.). Москва, Изд-во «Мысль», 1972, 442 с.
6. John W.G. The history of the foreign relations of the People's Republic of China, Oxford, 2016, 889 p.
7.Taiwan as part of Japanese Empire, Britannica. - URL: https://www.britannica.com/place/Taiwan [18.06.2024].
8. Григорьевич О.В. Вмешательство США в гражданскую войну в послевоенном Китае. - URL: http://tank.uw.ru/books/opolev/soviet-chinese-history-49/ [18.06.2024].
9. Robert D.B., Philip Z. The United States, China, and Taiwan: A Strategy to Prevent War. New York, 2021, 102 p.
10. Татьяна П. Эволюция фактора Тайваня в отношениях между США и КНР. Москва, МГИМО-Университет, 2014, 31 с.
11. Васильев Д.П. Политика США по отношению к Тайваню на современном этапе. Санкт-Петербург, 2017, 81 с.

САБИР АХМЕДОВ
Магистрант кафедры истории стран Азии и Африки
Бакинского Государственного Университета

РОЛЬ США В ТАЙВАНСКОЙ ПРОБЛЕМЕ

Тайванский вопрос является одним из главных направлений американской внешней политики начиная с 50-х годов XX века. Для того чтобы раскрыть истинную суть этой проблемы и

определить роль США по этой проблеме, следует взглянуть на результаты Японо-китайской войны 1894-1895-х годов. Именно тогда остров начал отделятся от материкового Китая и приобрел национальную идентичность. В результате гражданской войны в Китае Гоминьдан потерпел поражение и Китайская Республика под руководством Чана Кайши вынужденна была перебраться на остров Тайвань. С основанием Китайской Народной Республики в 1949 году остров остался единственной территорией Китая, где коммунисты не смогли прийти к власти.

Ключевые слова: Тайвань, США, Китайская Народная Республика, Гоминьдан, гражданская война.

SABIR AHMADOV
Master's student at the Department of History of Asian and African Countries of Baku State University

THE ROLE OF THE USA IN THE TAIWAN PROBLEM

The Taiwan issue has been one of the most important areas of American foreign policy since the 50s of the twentieth century. In order to reveal the true essence of this problem, and thereby find out the role of the United States in this problem, we should look at the results of the Sino-Japanese War of 1894-1895. It was then that the island began to separate from mainland China and acquired a national identity. As the result of the civil war in China, the Kuomintang was defeated and the Republic of China, under the leadership of Chiang Kai-shek, was forced to flee to the island of Taiwan. With the founding of the People's Republic of China in 1949, the island remained as the only Chinese territory in which the Communists were unable to take power.

Keywords: Taiwan, USA, People's Republic of China, Kuomintang, civil war.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 iyun 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. Aida Bağırova, t.ü.f.d. Məmmədağa Baxışov.